www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-15 (1819) 16 sentybar 2025-ci il



## Bilik Günü münasibətilə təntənəli mərasim keçirilib

**Hər kəsi təbrik edən rektor, professor Gəray Gəraybəyli I kurs tələbələrinə üz tutaraq, "böyük ailəmizə xoş gəlmisiz" deyib**

səh. 2

### Əməkdaşımız Harvard Tibb Məktəbinin sertifikatını alıb

səh. 7

### Professor Sədaqət Hüseynova: Miqren həmişə aktual problemdir

səh. 5

### Qoşqar İsmayılov: Payızın gəlişi ilə virus mənşəli xəstəliklərin çoxalma riski yüksəlir

səh. 6



### Rektor Gəray Gəraybəyli qəbul prosesini izləyib

O, tələbələrin xalqımız üçün layiqli kadr kimi yetişəcəklərinə əminliyini bildirib

səh. 2

### ATU ailəsinin yeni üzvləri ilə görüşlər keçirilib

*I kurs tələbələri hərtərəfli məlumatlandırılıb, tədris korpusları və auditoriyalarla tanış olublar*

səh. 3

### İlk dəfə olaraq ATU-da qız hərbi həkimlər hazırlanacaq

*Polkovnik Məharət Rzayev: Onlar oğlanlar kimi forma geyinəcək, təlimlərdə iştirak edəcək, rütbə alacaqlar*

səh. 4



### Yeni tədris ili ilə bağlı geniş müzakirələr aparılıb

Universitetimizdə təhsilin keyfiyyətinin yüksəldilməsi hər zaman prioritet istiqamətdir

səh. 3

# Rektor Gəray Gəraybəyli qəbul prosesini izləyib

**Avqustun 28-dən sentyabrın 10-dək Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazanmış gənclərin qeydiyyatı aparılıb. 2025/2026-cı tədris ilində birinci kurs tələbəsi olacaq şəxslər sənədlərini təqdim edərək öz fakültələri üzrə qeydiyyata düşüblər.**



Sentyabrın 4-də universitetimizin rektoru, professor Gəray Gəraybəyli qəbul prosesini izləyib. O, sənədlərin qeydiyyatı prosesinin gedişi ilə tanış olub, qəbulu aparan ATU nümayəndələri ilə söhbət edib, hansısa problemlərin olub-olmaması ilə maraqlanıb.

G.Gəraybəyli qəbula gələn valideynlərlə də görüşüb, övladlarının ATU tələbəsi adını qazanması münasibətilə onları təbrik edib. Rektor birinci kurs tələbələrinə təhsildə uğurlar arzulayıb, xalqımız üçün layiqli kadr kimi yetişəcəklərinə əminliyini bildirib.

# Türkiyə təqaüd proqramına qəbul alan tələbələrlə görüş olub

**Rektor, professor Gəray Gəraybəyli Türkiyə təqaüd proqramına qəbul alan tələbələrlə görüşüb. O, bu yüksək nəticə münasibətilə tələbələri təbrik edib.**



G.Gəraybəyli təqaüd proqramına layiq görülməyin onlar üçün həm qürur, həm də böyük məsuliyyət olduğunu bildirib: “Sizləri təbrik edirəm. Türkiyə universitetlərinin ayırmış olduğu bu təqaüd proqramına düşməyiniz sizin gələcək fəaliyyətinizdə çox önəmli olacaq. Bildiyiniz kimi, sənəd göndərən tələbə sayı çox idi. Sizlər ümumi ortalama ballarınızla Türkiyə universitetləri tərəfindən bu proqram üçün seçilmisiz. Bu böyük bir fərqlilikdir”.

Qeyd edək ki, II Müalicə-profilaktika fakültəsinin III kurs tələbələri Zeynəb Axundzadə, Şəms Yusifli, IV kurs tələbəsi Mehriban Orucova Türkiyənin İstanbul Cərrahpaşa Universitetində, İctimai səhiyyə fakültəsinin III kurs tələbəsi Yusif Əliyev, Əczaçılıq fakültəsinin III kurs tələbəsi Emili Qasımova Hacettepe Universitetində, Stomatologiya fakültəsinin IV kurs tələbəsi Kəlbi Kəlbiyev Ege Universitetində payız semestrı ərzində təhsil alacaqlar.

Görüşdə Tədris işləri üzrə prorektor, professor Anar Ağayev, Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Törə Sadıqova, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Aynur Abduləliyeva iştirak ediblər.

# ATU-ya Tədris işləri üzrə prorektor təyin olunub

**Anar Əzəm oğlu Ağayev Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru vəzifəsinə təyin olunub.**



Qeyd edək ki, A.Ağayev 2001-2004-cü illərdə ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında baş laborant, 2004-2005-ci illərdə assistent, 2005-2008-ci illərdə baş müəllim, 2008-2017-ci illərdə dekan müavini, 2017-2022-ci illərdə dekan, 2018-2025-ci illərdə isə professor vəzifəsində çalışıb.

Sonrakı illərdə TƏBİB-in İlkin səhiyyə və təcili yardım (2022-2023), Tibbi xidmətlərin təşkili (2023-2024), İxtisaslı tibbi xidmətin təşkili (2024-2025) departamentlərinin rəhbəri, 02.04.2025-ci ildən 03.09.2025-ci ilədək TƏBİB-in İcraçı direktorunun müşaviri vəzifələrində fəaliyyət göstərib.

A.Ağayev 2025-ci ilin 5 sentyabr tarixindən Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru vəzifəsinə təyin olunub.

**Sentyabrın 15-də Azərbaycan Tibb Universitetində Bilik Günü təntənəli şəkildə qeyd olunub. II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Nigar Babayevanın aparıcısı olduğu tədbir Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayıb.**

# Bilik Günü münasibətilə təntənəli mərasim keçirilib

## Hər kəsi təbrik edən rektor, professor Gəray Gəraybəyli I kurs tələbələrinə üz tutaraq, “böyük ailəmizə xoş gəlmisiz” deyib

Mərasimdə çıxış edən universitetin rektoru, professor Gəray Gəraybəyli professor-müəllim heyətini və tələbələri təbrik edib: “Mən sizi ölkəmizin ən nüfuzlu ali məktəblərindən biri olan Azərbaycan Tibb Universitetində Bilik Gününə həsr olunmuş tədbirdə səmimi qəlbdən salamlayıram və ilk növbədə bu il tələbə adını qazanmış əziz gənclərimizi, onların valideynlərini səmimi-qəlbdən təbrik edirəm. Bildiyiniz kimi, artıq bir neçə ildir bilik bayramı bütün Azərbaycan ərazisində, xüsusilə 30 ilə yaxın işğal altında olan şəhər və kəndlərimizdə böyük qürur hissi ilə qeyd olunur. Ölkəmizin hər yerində Azərbaycan bayrağı dalğalanır və Dövlət Himnimiz səslənir”.




Rektor təbrik nitqində bu böyük qələbənin memarı, möhtərəm prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycanda təhsilə, o cümlədən tibb təhsilinə daim yüksək səviyyədə diqqət və qayğı göstərdiklərini xüsusi vurğulayıb: “95 illik tarixi inkişaf yolu keçən Tibb Universiteti bu qayğını hər zaman hiss edir. Müəllimlərimizə, tələbələrimizə universitetin tədris prosesinə, elmi istiqamətə həmişə böyük diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 14-də Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikası binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak etməsi tibb təhsilinə göstərilən diqqətin əyani sübutudur. Bu həm də bir tarixdir. Yəni Azərbaycan Tibb Universitetinin 95, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi 25 illiyini qeyd edirsə, Qarabağ Universiteti öz qapılarını ilk dəfə tibb tələbələri üçün açıb”.

Azərbaycanda tibb kadrlarının hazırlanmasında universitetimizin müstəsna rolundan söz açan rektor, bu il Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi imtahanlarda Tibb Universitetini seçən abituriyentlərin ən yüksək göstəricilər nümayiş etdirdiyini deyib. Bildirib ki, tibb ixtisasına qəbul olunmuş tələbələrin keçid balı 624, stomatologiya ixtisası üzrə keçid balı isə 615 olub: “Universitetimizə bu il daxil olan 960 nəfərdən 729 nəfəri 600-dən çox bal toplayıb. Xüsusi fərəhlə qeyd etmək istərdim ki, qəbul imtahanında 700 bal toplayan 2 tələbə də universitetimizi seçib. Həmçinin Hərbi tibb, Stomatologiya, İctimai səhiyyə və Əczaçılıq ixtisaslarına qəbul olunan 159 nəfər də yüksək nəticələr göstərib. Tarixi bir hadisədir ki, bu il Hərbi tibb fakültəsinə ilk dəfə qızlar da sənəd verib və onlardan 56 nəfəri tələbə adını qazanıb”.

Professor Gəray Gəraybəyli təbrikini Azərbaycan Tibb Universitetinə ilk dəfə qədəm qoyan I kurs tələbələrinə ünvanlayaraq bildirib ki, bu gündən universitetin mühazirə, seminar zalları, dərs otaqları, kitabxanaları, klinikaları, laboratoriyaları sizin üçün açıqdır: “Heç vaxt unutmayacağınız tələbə həyatınız başlayır. Hər birinizə ürəkdən uğurlar arzulayıram. 6 il bizimlə bir yerdə olacaqsız. Əminəm ki, 6 ildən sonra da kimlərsə rezidenturada, kimlərsə doktoranturada təhsilini davam etdirəcək. Eləcə də indi burada əyləşən birinci kurs tələbələrinin bir qismi nə vaxtsa öz həyatını Tibb Universiteti ilə bağlayacaq.

Bir daha sizə Azərbaycan Tibb Universitetinin böyük ailəsi adından “ailəmizə xoş gəlmisiz” deyirəm. Qədəmləriniz uğurlu olsun. Təhsildə, elmdə, praktik səhiyyədə sizə böyük nailiyyətlər arzulayıram. Eyni zamanda Azərbaycan xalqının sağlamlığı və rifahının qorunması üçün gələcəkdə böyük xidmətlər göstərəcəyinizə inanıram”.

Sonra Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev çıxış edərək ürək sözlərini tədbir iştirakçıları ilə bölüşüb: “Bu gün sizin həyatınızda ən önəmli səhifələrdən



biri açılır. Sizi qarşıda məsuliyyətli, eyni zamanda şərəfli bir yol gözləyir. Həkim olmaq yolu. Ümidvaram ki, universitetimizin birinci kursuna qəbul olmuş tələbələrin professor-müəllim heyəti ilə ilk görüşü uzun illər yadda qalacaq.

Həkimlik sadəcə bir peşə deyil, insanlığa xidmət edən missiyadır. İndidən bilməlisiniz ki, Tibb Universitetində uğur qazanmaq üçün yalnız zəka kifayət deyil, həm də fədakarlıq, davamlı zəhmət, yüksək məsuliyyət hissi və böyük ürək tələb olunur”.

Professor R.Nağıyev gələcəyin cərrahları, terapevtləri, əczaçıları, alimləri və səhiyyə təşkilatçıları olacaq tələbələri qarşıda çətinliklərin, yuxusuz gecələrin də gözlədiyini, amma bu yolda universitetimizin rektoru başda olmaqla, bütün professor-müəllim heyətinin onlara həmişə dəstək göstərəcəyini söyləyib.

Toplantıda valideynlər adından danışan Stomatologiya fakültəsinin I kurs tələbəsinin valideyni Samirə Ələkbərova yeni dərs ili münasibətilə ATU-nun pedaqoji kollektivini, tələbələri və onların valideynlərini təbrik edib. Gələcəyin həkimlərinə bu şərəfli, məsuliyyətli, eyni zamanda çətin yolda cansağlığı, biliklə dolu tələbəlik illəri, vətənə və millətə gərəkli mütəxəssis olmağı arzulayıb.

Tələbələr adından 700 balla universitetə daxil olan II Müalicə-profilaktika fakültəsinin tələbəsi Sona Nurməmmədli çıxış edərək, qazandığı uğura görə ailəsinə, müəllimlərinə, eləcə də təhsilə yüksək səviyyədə qayğı göstərən dövlət rəhbərliyinə təşəkkürünü bildirib: “Bu yola çıxdıqda məqsədim yalnız yüksək bal toplamaq deyildi, yaxşı həkim olmaq istəyirdim. Bu gün burada olmaq həmin yolun ilk addımıdır. Düşünürəm ki, yaxşı həkim həm də insanlara qayğı göstərməyi bacarmalıdır. Əminəm ki, burada toplaşan hər bir tələbənin özünəməxsus hekayəsi var. Sonda isə demək istəyirəm ki, rəqabəti deyil, həmrəyliyi üstün tutaq. Çünki yaxşı bir həkim bir komandanın üzvü olaraq uğur qazanır. Zamanla həyat bizə göstərəcək ki, tibb təkcə elmi bir sahə deyil, həm də böyük bir insanlıq məktəbidir. Hər kəsə yeni tədris ilində uğurlar arzu edirəm!”

Tədbirin sonunda yenidən səhnəyə dəvət olunan rektor, professor Gəray Gəraybəyli 700 bal toplayan Sona Nurməmmədlini və I Müalicə-profilaktika fakültəsinin tələbəsi Orxan Abdulsəmədlini təbrik edərək onlara son model noutbuklar təqdim edib.

**Arf MƏMMƏDLİ**

# Yeni tədris ili ilə bağlı geniş müzakirələr aparılıb

## Universitetimizdə təhsilin keyfiyyətinin yüksəldilməsi hər zaman prioritet istiqamətdir

**Universitetimizin rəhbərliyinə daxil olan şəxslərlə tədris hissə müdirlərinin görüşü keçirilib. Görüşdə yeni tədris ilinə hazırlıq, tədris prosesinin təşkili və keyfiyyətin artırılması istiqamətində görüləcək işlər ətrafında fikir mübadiləsi aparılıb.**





Tədris işləri üzrə prorektor, professor Anar Ağayev çıxış edib və yeni tədris ilində qarşıda duran vəzifələrin icrası ilə maraqlanıb.

O, professor-müəllim heyətinin iş prinsipləri, tədrisin təşkili və keyfiyyətin təmin olunması məsələlərinə xüsusi diqqət çəkib. Prorektor qeyd edib ki, Azərbaycan Tibb Universitetində təhsilin keyfiyyətinin yüksəldilməsi hər zaman prioritet istiqamət olub. Onun sözlərinə görə, qarşıdan gələn tədris ilində də tələbələrin bilik və bacarıqlarının artırılması, müasir tibb elminin tələblərinə uyğun kadrların hazırlanması üçün bütün imkanlar səfərbər olunacaq: "Universitetimizin uğurları birbaşa olaraq pedaqoji kollektivin fədakar əməyindən asılıdır. Hər bir müəllim yalnız bilik ötürən deyil, həm də tələbələr üçün nümunə olmalıdır. Bizim əsas məqsədimiz gələcəyin peşəkar həkimlərini yetişdirməkdir və bu istiqamətdə qarşımıza qoyduğumuz bütün vəzifələrin öhdəsindən gələcəyik".

Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov çıxışında tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. O, universitetimizin ali təhsil müəssisələri arasında özünəməxsus yeri olduğunu vurğulayıb: "ATU təhsilin bütün pillələrində – subbakalavr, bakalavr, baza ali tibb, magistratura və rezidentura pilləsində kadr hazırlığı aparan yeganə ali məktəbdir. Universitetdə indiyədək 9 ixtisaslaşma üzrə magistratura pilləsində təhsil mövcud idisə, bu ildən artıq 17 ixtisaslaşma üzrə qəbul həyata keçirilib. Ümumilikdə isə ATU tərəfindən Elm və Təhsil Nazirliyinə 36 ixtisaslaşma üzrə təklif təqdim olunub ki, onların 17-si yeni ixtisaslaşmalardır. Bu, universitetimiz üçün mühüm nailiyyətdir".

K.Yaqubov Azərbaycan Tibb Universitetinin hərbi tibb sahəsində uğurlarından da bəhs edib. Onun sözlərinə görə, 25 illik fəaliyyəti dövründə ölkədə yeganə olan, hərbi tibbi kadrların hazırlanması işini həyata keçirən Hərbi tibb fakültəsi bu il rekord göstəriciyə imza atıb: "171 nəfər dövlət planı müqabilində 159 tələbə qəbul olunub. Onlardan 56 nəfərin qızlar olması fakültə üçün tarixi hadisədir və bu, universitetimiz üçün böyük uğur sayılır".

ATU-nun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova çıxışında müasir dövrdə sosial şəbəkələrin informasiya yayımındakı əhəmiyyətindən söz açıb. O, rəsmi məlumatların, xəbərlərin operativ və obyektiv şəkildə geniş ictimaiyyətə çatdırılmasında sosial medianın mühüm rol oynadığını qeyd edib "Sosial şəbəkələr təkcə məlumatların yayımı üçün deyil, həm də ictimai rəyin öyrənilməsi və baxışların formalaşdırılması mənasında əvəzsiz vasitəyə çevrilib".

G.Aslanova universitetin sosial media aktivliyinin xeyli artdığını vurğulayıb. Onun sözlərinə görə, ATU-nun səhifəsində təkcə bir post 35 mindən çox baxış toplayıb, yüzlərlə bəyənmə və onlarca paylaşım qazanıb. Son 3 ay ərzində universitet haqqında paylaşımlara 5 milyondan çox baxış olub. Qeyd olunub ki, bu göstəricilər sosial şəbəkələrdə yayılan məlumatların auditoriya tərəfindən diqqətlə izlənildiyini və universitetin fəaliyyətinə ictimai marağın yüksək olduğunu təsdiqləyir.

**Tədris işləri üzrə prorektor, professor Anar Ağayev və digər rəhbər şəxslər yeni tədris ilinə hazırlığın gedişini qiymətləndirmək məqsədilə kafedralara baxış keçiriblər.**

## Kafedra və klinikalarda monitorinq təşkil olunub

Baxış zamanı universitetin müxtəlif tədris binalarında yerləşən kafedraların fəaliyyəti ilə tanışlıq olub, tədris mühitinin yaxşılaşdırılması istiqamətində görülən işlər nəzərdən keçirilib. Akademik heyətlə görüşlərdə müəllimlərin yeni dərs ilinə hazırlıq səviyyəsi, tələbələrin tədris prosesinə daha səmərəli şəkildə cəlb olunması üçün görüləcək tədbirlər müzakirə olunub. Professor A.Ağayev qarşıdakı hədəf və vəzifələr barədə ətraflı məlumat verib. O, ATU-da tədrisin keyfiyyətinin artırılması, müasir təhsil texnologiyalarının tətbiqi, tələbələrin bilik və bacarıqlarının inkişafına yönəlmiş addımların vacibliyini qeyd edib.

Təsərrüfat məsələləri üzrə prorektor İlqar Mehrabov isə universitetin maddi-texniki bazasının gücləndirilməsi, tədris binalarının və auditoriyaların yeni dərs ilinə hazırlıq vəziyyəti, həmçinin görülən işlər, həyata keçirilən yeniliklər və qarşıdakı planlar haqqında geniş məlumat təqdim edib.

Növbəti monitorinq Stomatoloji, Terapevtik və Cərrahiyyə klinikalarında baş tutub. Prorektorlar, fakültə dekanları və Tədris Departamentinin əməkdaşlarının iştirak etdiyi görüşlərdə klinikalarda tədris prosesinin təşkili, dərslərin gedişinə hazırlıq səviyyəsi, müəllimlərin pedaqoji yanaşmaları, tələbələrin praktiki vərdişləri və nəzəri biliklərini real klinik şəraitdə tətbiq etmək imkanları müzakirə olunub. Həmçinin kafedraların maddi-texniki bazası, tibbi avadanlıqların işlək vəziyyəti və klinikalarda yaradılan tədris mühiti ilə bağlı ətraflı məlumat təqdim edilib.

# ATU ailəsinin yeni üzvləri ilə görüşlər keçirilib

## I kurs tələbələri hərtərəfli məlumatlandırılıb, tədris korpusları və auditoriyalarla tanış olublar

**2025-2026-cı tədris ilinin başlanması münasibətilə sentyabrın 12-də Azərbaycan Tibb Universitetinin I kursuna qəbul olunmuş tələbələrlə tanışlıq xarakterli ənənəvi görüşlər keçirilib. Görüşlərdə fakültə dekanları, dekan müavinləri, akademik məsləhətçilər, eləcə də tələbə sevincini yaşayan gənclərin valideynləri iştirak ediblər.**





I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov fakültənin birinci kursuna qəbul olunan tələbələri ATU ailəsinə üzv olmaları münasibətilə səmimi qəlbdən təbrik edib. Görüşdə universitetin tədris binaları, klinikaları, yataqxanaları, idman kompleksi, təhsil sistemi, imtahan prosesi, daxili nizam-intizam qaydaları və ali məktəbdə son illərdə aparılan islahatlar barədə ətraflı məlumat verilib. Dekan E.Novruzov fakültənin kafedraları, professor-müəllim heyəti haqqında söhbət açıb və həkimlərin insanların həyatındakı mühüm rolunu vurğulayıb.

Tədbir zamanı I Müalicə-profilaktika fakültəsinin zəngin tarixi, inkişaf yolu və nailiyyətləri haqqında maraqlı videoçarx nümayiş olunub.

* * *

Növbəti görüş İctimai səhiyyə fakültənin dekanı, dosent Qalina Qəniyeva tələbələri universitet rəhbərliyi və öz adından təbrik edərək, onların valideynlərinə gözaydınlığı verib.

Dekan müavini Nailə Məmmədova tələbələri boloniya kredit sistemi, qiymətləndirmə, kredit borcu və s. barədə məlumatlandırıb. Görüş zamanı tələbələrin gələcəkdə savadlı və peşəkar mütəxəssis kimi yetişməsi üçün daim öz üzərilərində işləməsinin vacibliyi diqqətə çatdırılıb. ATU-nun mövcud maddi-texniki bazası, ictimai təşkilatları, daxili intizam qaydaları, aparılan mühazirələr, praktiki seminarlar və imtahan prosesi barədə də tələbələr hərtərəfli məlumatlandırılıb.

Görüşdə dekanlığın digər nümayəndələri və xüsusi fəallıqları ilə seçilən yuxarı kurs tələbələri də çıxış edərək, I kurs tələbələrini ilk gündən dekanlıqla səmimi ünsiyyət qurmağa, universitetin ictimai həyatında fəal iştirak etməyə çağırıblar.



* * *

Stomatologiya fakültəsinin dekan müavini Aysel Həşimova fakültənin I kursuna qəbul olunan tələbələri və onların valideynlərini dekanlıq əməkdaşları adından təbrik edib.

Dekan müavini fakültənin tərkibində olan kafedraların fəaliyyəti, tədris prosesinin təşkili, nizam-intizam qaydaları haqqında məlumat verib. O, tələbələri dərslərə ciddi hazırlaşmağa, hər zaman yeni biliklərə açıq olmağa çağırıb. Fakültə nümayəndələri tələbələrin təqaüd, mübadilə proqramları, klinik fənlərin harada keçirilməsi və s. məsələlərlə bağlı suallarını cavablandırıblar.

Görüşdə fakültənin akademik məsləhətçisi Həcər İsmayılova və tələbə dekanı Kəlbi Kəlbiyev də çıxış edərək, gələcəyin diş həkimlərinə uğurlar arzulayıblar.

* * *

II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli də fakültəyə yeni qəbul olunmuş tələbələri ürəkdən təbrik edərək, gələcəyin həkimlərinə uğurlar diləyib. Dekan fakültənin tərkibində olan kafedraların fəaliyyəti, tədris prosesinin təşkili, nizam-intizam qaydaları haqqında söhbət açıb.

Görüş zamanı tələbələr və valideynlər ATU-nun mövcud maddi-texniki bazası, ictimai təşkilatları, mühazirələr, seminarlar, təcrübə imkanları və imtahan prosesi barədə də hərtərəfli məlumat alıblar.

* * *

Daha bir görüş Əczaçılıq fakültəsinin I kurs tələbələri ilə keçirilib. Fakültənin dekanı, dosent Fərəh Mədətli gəncləri təbrik edərək, bu şərəfli peşəyə yiyələnmək yolunda onlara uğurlar diləyib.





Dekan tələbələrə ATU-nun, o cümlədən Əczaçılıq fakültəsinin keçdiyi tarixi inkişaf yolu barədə məlumat verib. O görkəmli dövlət xadimi Əziz Əliyev tərəfindən Azərbaycanda Əczaçılıq İnstitutunun yaradıldığını xatırladaraq bildirib ki, qonşu dövlətlər arasında yeganə ölkə idik ki, əczaçılıq təhsili üçün ayrıca bir institut təsis olunmuşdu. 1942-ci ildən Əczaçılıq İnstitutu Tibb İnstitutunun nəzdində fakültə kimi fəaliyyətini davam etdirib.

Fakültənin beynəlxalq sertifikasiyadan keçməsinin üstünlüklərindən də danışan dekan, məhz bu səbəbdən diplomlarımızın bir çox xarici ölkələrdə tanındığını diqqətə çatdırıb. Yeni tələbə adını qazanmış gənclər dərs keçəcəkləri tədris korpusları, universitet klinikaları, dərs prosesi, imtahan sistemi haqqında da məlumatlandırılıb.

Fakültənin dekan müavini Esmira Hacıyeva, akademik məsləhətçi Gültəkin Acalova, kompüter operatoru Könül Cavadova və tələbə dekan Teymur Rəhimov da öz ürək sözlərini I kurs tələbələri ilə bölüşərək, onlara göstərilən etimadı doğruldacaqlarına əminliklərini bildiriblər.

Görüşdə fakültə məzunlarının uğur hekayələrindən də söz açılıb.

Qeyd edək ki, görüşlərdən sonra I kurs tələbələri və onların valideynləri fakültələrin əməkdaşları və fəal tələbələrin müşayiəti ilə universitet şəhərciyini gəzib, tədris korpusları və auditoriyalarla əyani tanış olublar.

**Arif MƏMMƏDLİ**

# Tibb üzrə fəlsəfə doktoru proqramına qəbul imtahanı keçirilib

**Azərbaycan Tibb Universitetində tibb üzrə fəlsəfə doktoru proqramı üzrə qəbul çərçivəsində fəlsəfə fənnindən imtahan keçirilib. Elmi işlər üzrə prorektor, professor Məlahət Sultanova imtahanın gedişini izləyib.**



Namizədlərin elmi bilik və fəlsəfi dünyagörüşünün qiymətləndirilməsi məqsədilə təşkil olunan imtahanda iştirakçılar öz biliklərini nümayiş etdiriblər. Nəticələrə əsasən, fəlsəfə imtahanından müvəffəqiyyətlə keçən namizədlər növbəti mərhələyə – ixtisas üzrə qəbul imtahanına buraxılacaqlar.

Qeyd edək ki, Doktorantura və dissertantura şöbəsinin əsas məqsədi yüksək səviyyəli mütəxəssis hazırlığının beynəlxalq standartlara və dövrün tələblərinə uyğunlaşdırılmasının zəruriliyini nəzərə almaqla, elmi-tədqiqat işlərinin aparılması istiqamətində doktorant və dissertantların peşəkar inkişafına dəstək olmaq, eləcə də gəncləri elmi fəaliyyətə daha geniş miqyasda cəlb etməkdir.

# Əcnəbi tələbələrin qəbulu iki istiqamət üzrə aparılıb

**Əcnəbi vətəndaşların ATU-ya qəbul prosesi Təhsil Nazirliyinin vahid elektron sistemi – portal.edu.az vasitəsilə həyata keçirilib. Əcnəbi təhsilalanlarla iş üzrə dekan, dosent Natiq Bayramovun sözlərinə görə, iyul ayından etibarən portal aktivdir və əcnəbi tələbələr sistem üzərindən qeydiyyatdan keçərək sənədlərini təqdim ediblər.**



ATU-nun rektoru, professor Gəray Gəraybəylinin əmrinə əsasən, əcnəbi tələbələrin sənədlərinin yoxlanılması və onların müsabiqə əsasında seçilməsi üçün xüsusi komissiya yaradılıb. Komissiya mütəmadi olaraq tələbələrin iştirakı ilə onlayn formatda müsabiqələr təşkil edib. Qəbul prosesi iki istiqamət üzrə aparılıb: hazırlıq bölməsi və birbaşa birinci kursa qəbul. Birinci kursa tələbə qəbulu sentyabrın ilk həftəsində yekunlaşıb. Hazırlıq bölməsinə qəbul isə dekabrın sonunadək aparılacaq. Bu bölmə üzrə dərslərin başlanması 2026-cı ilin yanvar ayına planlaşdırılır.

N.Bayramov onu da əlavə edib ki, müsabiqədən uğurla keçərək qəbul statusu almış tələbələrin məlumatları portal sistemində qeyd olunur: “Həmin tələbələr universitetə gələrək tələb olunan sənədləri Əcnəbi təhsilalanlarla iş üzrə dekanlığa təqdim edirlər. Qaydalara əsasən, sənədlər təsdiqləndikdən sonra onlar rəsmi şəkildə universitetin tələbəsi hesab olunur və müvafiq qruplara yerləşdirilirlər”.

Qeyd edək ki, birbaşa birinci kursa qəbul olunmuş tələbələr üçün dərslər sentyabrın 15-dən başlayır.

# "Böyük Qayıdış”a sağlamlıq dəstəyi – Füzulidə stomatoloji aksiya keçirilib

**Səhiyyə Nazirliyi işğaldan azad olunmuş ərazilərdə “Böyük Qayıdış” proqramı çərçivəsində kompleks tibbi müayinələr və sağlam həyat tərzinin təşviqinə dair maarifləndirici tədbirləri davam etdirir.**



Növbəti belə aksiya Füzuli şəhərində keçirilib. Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Tibb Universiteti Tədris Stomatoloji Klinikasının həkim briqadası tərəfindən yerli əhalinin müayinəsi aparılıb. Eyni zamanda, Qarabağın dirçəlişi prosesində fəaliyyət göstərən mütəxəssislər üçün stomatoloji müayinələr və konsultasiyalar təşkil edilib.

Aksiyanın əsas məqsədi sakinlərin ağız boşluğunun vəziyyətinin qiymətləndirilməsi, müxtəlif stomatoloji patologiyaların erkən aşkarlanması, profilaktik tədbirlərin aparılması və vətəndaşlara konsultativ tibbi xidmətlərin göstərilməsi olub.

Müayinələr klinikanın direktoru İmran Ağayevin rəhbərlik etdiyi həkim briqadası, o cümlədən stomatoloq-terapevt, stomatoloq-ortodont, stomatoloq-ortoped, stomatoloq-cərrah və uşaq stomatoloqu tərəfindən həyata keçirilib. Ümumilikdə, aksiya zamanı 100-ə yaxın vətəndaş tibbi müayinədən keçib.

Qeyd edək ki, Səhiyyə Nazirliyi tərəfindən “Böyük Qayıdış”a dəstək məqsədilə işğaldan azad olunmuş bölgələrdə bu qəbildən olan tibbi və maarifləndirici tədbirlər təşkil edilir.

# İlk dəfə olaraq ATU-da qız hərbi həkimlər hazırlanacaq

## Polkovnik Məharət Rzayev: Onlar oğlanlar kimi forma geyinəcək, təlimlərdə iştirak edəcək, rütbə alacaqlar

**Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi 25 ildir ki, fəaliyyət göstərir. Və ölkəmizdə hərbi tibbi kadrların hazırlanması üzrə yeganədir. Bu müddət ərzində hazırlanmış minlərlə mütəxəssis ölkəmizin güc strukturlarının tibb müəssisələrində ləyaqətlə xidmət edir. Hərbi həkimlərimiz və tibb işçiləri 44 günlük Vətən müharibəsində də öz sözünü şərəflə dedi. Məhz onların fədakarlığı sayəsində çoxsaylı yaralılar həyata qayıtdı ki, bu da itkilərimizin sayının xeyli azalmasına səbəb oldu.**

Son illər ATU-nun bütün strukturlarında islahatlar aparılmasının şahidiyik. Bu proses Hərbi tibb fakültəsindən də yan keçməyib. Bu ilki qəbul imtahanları, yeniliklər barədə məlumat almaq üçün fakültənin rəisi, tibb xidməti polkovniki Məharət Rzayevə müraciət etdik.

M.Rzayev əvvəlcə həm ATU-nun rektoru, professor Gəray Gəraybəylinin, həm də Milli Müdafiə Universitetinin (MMU) rektoru, general-mayor Gündüz Əbdülovun hərbi həkimlərin hazırlanması işində daim Hərbi tibb fakültəsinə diqqət və qayğı göstərdiklərini vurğuladı.

Onun bildirdiyinə görə, universitetin bütün sahələrində olduğu kimi, rəhbərlik etdiyi fakültədə də yeniliklər baş verib: “Bu ilədək dövlət qəbul planı tam şəkildə dolmamışdı. Hər il plan 40-50 faiz ancaq yerinə yetirilirdi. Amma ötən ildən etibarən Milli Müdafiə Universiteti tərəfindən edilən yeniliklər öz müsbət nəticəsini göstərdi. Belə ki, universitetin nəzdində Qəbul Komissiyası təşkil olundu. Sənədlərin qəbulunun əlçatanlığını təmin etmək üçün regionlarda 17 qəbul məntəqəsi yaradıldı. Tutaq ki, Gəncə ətrafı rayonlarda yaşayanlar Gəncədə, Lənkəran ətrafı rayonlarda yaşayanlar Lənkəranda sənəd verdilər. Aparılan təbliğat kampaniyası və regionlarda məntəqələrin olması vətəndaşların fakültəyə marağını xeyli artırdı. Ötən il planda nəzərdə tutulan 130 nəfərə qarşı 87 nəfər qəbul oldu. Bu isə o demək idi ki, dövlət planı 65 faizdən çox dolub.

Onu da qeyd edim ki, ötən il qəbul balında da dəyişiklik oldu. Keçid balı təxminən 50 bal yüksəldi. Əvvəllər 350 balla daxil olmaq mümkün idisə, keçən il 400 baldan aşağı toplayanlar kənarda qaldı”.

Polkovnik M.Rzayev bu il də tələbə qəbulunda bəzi dəyişikliklər edildiyini nəzərə çatdırdı. Bildirdi ki, regionlarda vətəndaşlara məsləhət vermək üçün mərkəzlər fəaliyyət göstərib: “Amma sənədlər təşkil olunmuş mərkəzlərdə qəbul edilmədi. Vətəndaşların əlçatanlığını daha da asanlaşdırmaq üçün Milli Müdafiə Universitetinin saytında bir baza yaradıldı. Abituriyentlər bazaya daxil olmaqla sənədlərini elektron qaydada təqdim edə bildilər. Bazanın yaradılması sənəd qəbulu işini daha da sadələşdirdi. Hər kəs rahat şəkildə bazanın imkanlarından istifadə edə bildi. Əlavə olaraq, *0811 nömrəli “Qaynar xətt” də təşkil olundu. Kimi hansı sual maraqlandırırdısa, zəng vurub, məsləhət ala bilirdi. Yeri gəlmişkən, “Qaynar xətt” üçün nömrə təsadüfi seçilməyib. Belə ki, Zəfər Günü 11-ci ayın 8-dədir.



Bütün bunların nəticəsində gənclərdə Hərbi tibb fakültəsinə maraq yüksəldi. Avqustun 1-də verilən elan isə fakültəmizin həyatında tamamilə yenilik oldu. Elanda ilk dəfə olaraq Hərbi tibb fakültəsinə qızların da qəbul olunması barədə məlumat öz əksini tapdı. Nəticə gözlədiyimizdən qat-qat yaxşı oldu, xeyli sənəd verənlər oldu. Bu il qızlar arasında ən yüksək nəticəni Tükəzban Zalova göstərdi. O, 667.6 balla fakültəmizin ən yüksək bal toplayanı hesab olunur. Bu il 171 nəfər dövlət planına qarşı oğlanlı-qızlı 159 nəfər qəbul olundu. Onlardan 56 nəfərin qız olması təqdirəlayiq haldır. Bu il, eyni zamanda ixtisasların da sayı artırıldı. Əgər əvvəllər hərbi tibb, stomatologiya ixtisasları var idisə, bu ildən ictimai səhiyyə və əczaçılıq ixtisasları da əlavə edildi”.

Fakültənin rəisi bu ildən etibarən feldşer ixtisası üzrə də qızların təhsil alacağını diqqətə çatdırdı. Bildirdi ki, bu il oğlanlar üçün keçid balı artaraq 420, qızlar üçün isə 500 olub: “İxtisas üzrə 110 oğlan, 10 qız tələbə adını qazandı. Feldşer hazırlığı kursunda qəbul balı ötən il 97 idisə, bu il 116-a yüksəldi. Əvvəlki illərdə müraciət edənlər az olduğundan, daha aşağı balla qəbul edə bilirdiksə, bu il yüksək balla da müsabiqədən keçə bilməyənlər oldu. Bu il 1-ci kursda 12 qrupun olmasını planlaşdırırıq. Əlavə olaraq, stomatologiya, ictimai səhiyyə və əczaçılıq ixtisaslarının hər biri üzrə bir qrup təşkil ediləcək”.



Sualımızı cavablandıran M.Rzayev qeyd etdi ki, fakültədə təhsil alacaq qızlar oğlanlar kimi forma geyinəcək, gələcəkdə təlimlərdə iştirak edəcək, rütbə alacaq, plana uyğun güc strukturlarının tibb müəssisələrində işlə təmin olunacaqlar.

Fakültənin fəaliyyət istiqamətləri haqda danışan polkovnik, burada həkimləri və feldşerləri təkmilləşdirmə kursunun mövcud olduğunu, ehtiyac olan mütəxəssislərin göndərişlər əsasında kurslarda iştirak etdiyini bildirdi: “Tutaq ki, hansısa hospitalda radioloq-texnikə ehtiyac var. Onun üçün 6 aylıq kurs təşkil edilir və işlə təmin olunur. Ümumiyyətlə isə zabitlər hər 3-5 ildən bir yeniliklərlə tanış olmaq üçün həkimləri təkmilləşdirmə kurslarına qatılırlar. Amma hamını kursa göndərmək mümkün olmadığından, həkimlər hər zaman öz üzərində işləməli, axtarışda olmalıdırlar”.

Tələbələrin elmi fəaliyyəti ilə də maraqlandıq. Fakültə rəisi qeyd etdi ki, kursantlara klinik bazamız olan hospitalda və kafedralarda normal şərait yaradılıb. Elmi araşdırmalar Tələbə Elmi Cəmiyyətinin vasitəsilə həyata keçirilir. Fakültədən 5 nəfər öz elmi tədqiqatlarını may ayında keçirilmiş Tibb Festivalında təqdim edib: “Beynəlxalq konfranslarda yer tutan kursantlarımız da var. Möhsün



Quluzadə ötən il Özbəkistanda Bilik Olimpiadasında diploma layiq görüldü. İqbal Babazadənin məruzəsi də maraqla qarşılandı. İki tələbəmiz öz təşəbbüsləri ilə bu il yayda məzuniyyət götürüb, Ankara xəstəxanalarının birində təcrübə keçiblər. Beynəlxalq arenada tələbə mübadiləmiz və əlaqələrimiz davam edir. Hazırda İtaliya, Rusiya və Türkiyədə təhsil alan tələbələrimiz var”.

Söhbətimizin sonunda bizi maraqlandıran bir suala da cavab istədik: “Məlumdur ki, həkimlər 5 ildən bir sertifikasiyadan keçir. Bu, hərbi həkimlərə də şamil olunurmu?”

M.Rzayev: “Doğrusu, hərbi həkimlər indiyədək sertifikasiyadan keçmirdilər. Amma elektron xəstəxanaya keçidlə, sığorta sisteminin tətbiqi ilə əlaqədar olaraq, hərbi həkimlərin də sertifikasiyadan keçməsi nəzərdə tutulur”.

**Qabil ABDULLAYEV**

# Bakıda ilk Azərbaycan-Türkiyə Diabet Günləri keçirilib




**6-7 sentyabr 2025-ci il tarixlərində Bakı Gənclər Mərkəzində Azərbaycan Endokrinoloqlar Cəmiyyəti və Türkiyə Diabet Cəmiyyətinin birgə təşkilatçılığı ilə 1-ci Azərbaycan-Türkiyə Diabet Günləri keçirilib.**

Tədbirdə həm ölkəmizdən, həm də Türkiyədən tanınmış alimlər, mütəxəssislər diabet sahəsində elmi və praktik məruzələrlə çıxış ediblər. İki gün davam edən elmi tədbirdə şəkərli diabetin diaqnostikası, müalicəsi və profilaktikası ilə bağlı aktual mövzular müzakirə olunub, mütəxəssislər öz təcrübələrini bölüşüblər.

Konfransın ikinci günündə Azərbaycan Nutrisiologiya və Diyetologiya Assosiasiyası – NUDİA tərəfindən "Diabetdə diyetologiyanın yeri" adlı simpozium təşkil olunub. Simpoziumda diabet xəstələrinin qidalanma strategiyaları, dietetik yanaşmaların müasir trendləri və xəstəliyin müalicəsində, eyni zamanda profilaktikasında qidalanmanın rolu geniş şəkildə təqdim edilib. Diabet və yanaşı xəstəliklər zamanı pəhrizin düzgün tərtibinin mühüm əhəmiyyət daşıdığı barədə məruzələr dinlənilib.

Tədbirdə İctimai səhiyyə fakültəsinin dekanı Qalina Qəniyeva, Qidalanma və tibbi ekologiya kafedrasının müdiri Fəridə Əli və kafedranın əməkdaşları Q.Hacıyeva, A.Abdullayeva və İ.İslamzadə iştirak ediblər. Onlar da diabetlə mübarizədə pəhrizin və qidalanma mədəniyyətinin vacibliyi barədə öz fikirlərini bildiriblər.

Qeyd olunub ki, Azərbaycan və Türkiyə alimlərinin birgə əməkdaşlığı gələcəkdə diabetin effektiv müalicəsinin təşkilində mühüm nəticələr əldə etməyə imkan verəcək.



# Rezidentlər kafedralara və klinik bazalara bölünüb

**2025/2026-cı tədris ilində ATU-nun rezidentura pilləsinə qəbul olunan həkimlərlə görüş keçirilib.**

Tədbirdə çıxış edən Rezidentura və magistratura şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva qeyd edib ki, rezidentura - tibb ixtisasları üzrə baza ali tibb təhsili əsasında həkim-mütəxəssis hazırlığı formasıdır. Həkim-mütəxəssis ixtisasları üzrə təhsil müddəti ixtisasdan asılı olaraq 2 ildən 5 ilə qədər davam edir. O, həmçinin rezidentura təhsilinin qaydaları, məzmunu və təşkili haqqında ətraflı məlumat verib.

Görüşdə rezidentlərin müvafiq ixtisaslar üzrə kafedralara və klinik bazalara bölgüsü aparılıb.

Qeyd edək ki, bu il Dövlət İmtahan Mərkəzi vasitəsilə ATU-ya 193 nəfər rezident qəbul olunub. Onların 70 faizi universiteti fərqlənmə diplomu ilə bitirib.

# 57 tələbəmiz Ege Universitetində yay təcrübə proqramını başa vurub



**Universitetimizin 57 tələbəsi Türkiyənin Ege Universitetində təşkil olunan yay təcrübə proqramını uğurla başa vurub.**

Proqram çərçivəsində tələbələr müxtəlif ixtisas istiqamətləri üzrə nəzəri biliklərini praktik bacarıqlarla zənginləşdirmək, təcrübəli mütəxəssislərlə əməkdaşlıq etmək və beynəlxalq mühitdə peşəkar inkişaflarına töhfə vermək imkanı əldə ediblər.

Təcrübə müddətində tələbələr tibbin müxtəlif sahələrində klinik fəaliyyətlə tanış olub, həmçinin elmi-tədqiqat işləri ilə bağlı biliklərini genişləndiriblər. Bu cür beynəlxalq əməkdaşlıq layihələri ATU tələbələrinin gələcək karyera yolunda mühüm əhəmiyyət daşıyır və onların qlobal miqyasda rəqabət qabiliyyətinin artırılmasına xidmət edir.

Azərbaycan Tibb Universiteti tələbələrin peşəkar inkişafına dəstək olan Ege Universitetinin rəhbərliyinə və müəllim heyətinə təşəkkürünü bildirir.

# Miqren həmişə aktual bir problemdir

## Dərman terapiyası ilə yanaşı, xəstə öz həyat tərzini də qaydaya salmalıdır

**Hər il 12 sentyabr - Beynəlxalq Miqrenlə Mübarizə Günü kimi qeyd olunur. Bu tarix xəstəliyin ciddiliyinə diqqət yetirmək və insanların onun nəticələri haqqında məlumatlılığını artırmaq məqsədi daşıyır. Çünki miqren xəstənin təkcə fiziki və psixi vəziyyətinə deyil, həm də işinə, ailəsinə və sosial həyatına təsir göstərir.**



Baş ağrıları (BA) əhali arasında çox geniş yayılmış şikayətlərdən biridir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2023-cü il məlumatına görə, dünyada yetkinlik yaşına çatan əhalinin 47%-i ayda ən azı bir dəfə baş ağrısından əziyyət çəkir. Səhiyyənin ilkin səviyyəsində müraciətlərin 4,4%-i, ambulator nevroloji müraciətlərin isə 30%-i BA ilə bağlıdır.

Baş Ağrılarının Beynəlxalq Təsnifatında 200-dən çox növü qeyd edilir. Ən geniş yayılmış birincili baş ağrılarına miqren, gərginlik BA, klaster BA və bəzi az rast gəlinən birincili baş ağrıları daxildir.

Miqren (lat. hēmicrania fr. migraine, yunan. μικρανία - "başın yarısını əhatə edən baş ağrısı") vaxtaşırı orta və yüksək intensivlikli pulsasiya edən ağrı tutmaları olub, bir neçə saatdan 2-3 günə qədər davam edir və fiziki fəaliyyətlə güclənə bilir. Çox hallarda ürəkbulanma, qusma, işığa, səslərə və qoxulara qarşı yüksək həssaslıqla müşayiət olunur. Miqren ildə bir dəfə və ya hər gün baş verən tutmalarla təzahür edə bilən və əmək qabiliyyətinin əhəmiyyətli dərəcədə itirilməsinə gətirən birincili BA-nın ağır formasının ən geniş yayılmış növüdür. ÜST miqreni 15-44 yaş həddlərində olan qadınlar üçün 20 ən ağır xəstəlik siyahısına daxil edib. Yayılma dərəcəsinə görə 10% kişilərdə, 22% qadınlarda müşahidə olunur.

Qlobal Xəstəlik Yükü Araşdırmasına görə, miqren dünyada ən çox yayılmış ikinci nevroloji xəstəlikdir və həyat fəaliyyətini bütün digər nevroloji xəstəliklərdən daha çox məhdudlaşdırır.

Xəstəliyin inkişafı insanın genetik komponenti və ətraf mühit amillərinin məcmusu ilə bağlıdır. İrsiyyətə əlavə olaraq, miqrenin yaranmasına səbəb olan əsas amillər arasında həddindən artıq iş, stress, qidalanma pozuntuları və həyat tərzi, alkoqoldan sui-istifadə mühüm yer tutur. Qadınlarda menstruasiya zamanı xəstəlik şiddətlənə bilər. Hormonal dəyişikliklər də az rol oynamır. Məsələn, yetkinlik yaşına qədər oğlanlar miqrendən qızlardan daha çox əziyyət çəkirlər, yetkin qadınlarda isə miqrenə kişilərə nisbətən 2-3 dəfə sıx rast gəlinir.

Kliniki olaraq miqren, bir sıra simptomlarla təkrarlanan baş ağrısı tutmaları şəklində özünü göstərir. Miqrendən əziyyət çəkən şəxslərin təxminən üçdə birində baş ağrısı bəzən və ya hər zaman miqren aurası adlandırılan keçici nevroloji pozuntulardan sonra meydana gəlir və ya onlarla müşayiət olunur. Bundan əlavə, bu xəstəlikdən əziyyət çəkən insanların az bir qismində tutmaların tez-tez baş verdiyi xroniki miqren yaranır.

Müəyyən amillər miqren tutmasını tətikləyə bilir: isti, soyuq, müxtəlif qoxular, parlaq işıq, səs-küy, fiziki gərginlik/hərəkət, xronik stress, yuxu pozğunluğu, vaxtsız/pis qidalanma, tütünçəkmə, cinsi yetkinlik dövrü, menstruasiya və ya ovulyasiya, menopauza, hamiləlik, dərman amili (nitroqliserin, oral kontraseptivlər, hormonal terapiya, opiat və barbituratlar, nifedipin və s.), qida məhsulları (sitrus meyvələri, tərkibində kofein, nitritlər və aspartam olan qida məhsulları, kifli pendir, şokolad, alkoqol, monosodium qlutamatlı qida məhsulları və s.).

Sürəkli davam edən, müalicəyə çətin tabe olan miqren xəstəliyi insanların psixi sferasına da təsir göstərir. Miqren və psixi pozuntular arasındakı əlaqə çoxsaylı populyasiya tədqiqatlarında yaxşı sənədləşdirilmişdir. Bu tədqiqatların nəticələri miqrenli xəstələrdə depressiya, bipolyar pozuntular, çoxsaylı təşviş pozuntuları, xüsusən də post-travmatik stress pozuntusu riskinin artdığını göstərir. Bu, miqren xəstəliyinin provokasiyaedici səbəbi kimi stress məsələsini qaldırır. Psixiatrik komorbidlik epizodik miqreni olan xəstələrə nisbətən xroniki miqren zamanı daha sıx rast gəlinir. Hətta bir çox prospektiv tədqiqatlar göstərib ki, psixiatrik komorbidlik miqrenin xronizasiyası üçün risk faktoru kimi qəbul edilə bilər.

Son illərdə əldə edilmiş uğurlara baxmayaraq, bu xəstəliyin müalicəsi həkimlər üçün olduqca çətin bir iş olaraq qalır. Xəstələr adətən özünümüalicəyə üstünlük verir, mütəxəssislərə müraciət etmirlər ki, bu da ağrı tutmasını tez bir zamanda aradan qaldırmaq üçün ağrıkəsicilərdən sui-istifadəyə və abuzus tipli baş ağrılarının yaranmasına səbəb olur. Nevroloqların fikrincə, yalnız düzgün və vaxtında diaqnoz və kompleks yanaşma xəstəliyin müalicəsində yaxşı nəticələr əldə etməyə imkan verir.

Müasir dövrdə miqren problemləri ilə məşğul olan beynəlxalq təşkilatlar – Avropa Baş Ağrı Federasiyası (European Headache Federation- EHF) və Beynəlxalq Baş Ağrı Cəmiyyəti (İnternational Headache Society – İHS) tərəfindən onun idarə edilməsinə yanaşmalar işlənib hazırlanmışdır. Belə ki, bu yanaşma həm miqren tutmalarının aradan qaldırılmasını, həm də xroniki miqrenin profilaktik müalicəsini əhatə edir. Miqren tutmalarının aradan qaldırılması üçün müasir arsenalda triptanlar, gepantlar kimi preparatlar var. Hazırda Azərbaycanda bu preparatların müxtəlif formaları var, bu da miqrenli xəstələrə olan konkret tibbi yardım imkanlarını genişləndirir.

Ancaq unutmamaq lazımdır ki, həkimlərə və dərman terapiyasına müraciət etməklə yanaşı, xəstə öz həyat tərzini də qaydaya salmalıdır. Buna görə miqren riskini azaltmaq üçün kifayət qədər yuxu, pis vərdişlərdən imtina, düzgün və balanslı qidalanmaq, təmiz havada gəzmək, bədən tərbiyəsi ilə məşğul olmaq və stresli vəziyyətlərin öhdəsindən gəlmək vacibdir.

Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, problemin vacibliyi və tibbi-sosial əhəmiyyəti nəzərə alınaraq, ötən il respublikamızda Səhiyyə Nazirliyinin dəstəyi ilə Azərbaycan Miqren Mütəxəssisləri İctimai Birliyi rəsmi dövlət qeydiyyatından keçib və fəaliyyətə başlayıb. Qısa müddət ərzində bu təşkilat Avropa Baş Ağrı Federasiyasına üzv qəbul olunub və onlarla əməkdaşlığı genişləndirib. Hazırda İctimai Birliyin 1-ci illik beynəlxalq konfransına (20 dekabr 2025) geniş hazırlıq işləri aparılır.

**Sədaqət HÜSEYNOVA**
*Fizioterapiya və tibbi reabilitasiya kafedrasının professoru, Azərbaycan Miqren Mütəxəssisləri İctimai Birliyinin sədri*

# Payızın gəlişi ilə virus mənşəli xəstəliklərin çoxalma riski yüksəlir

**Qoşqar İsmayılov: “Yuxu rejimi normaldırsa, immun sistemi, immun sistemi normaldırsa, uşaq sağlamdır”**



“Hər il payız mövsümündə - sentyabr, oktyabr, noyabr aylarında infeksion xəstəliklərin, yəni törədicisi virus olan xəstəliklərin artma riski yüksəlir. Bu da ilk növbədə yay aylarında istirahətdə olan, açıq havada daha çox zaman keçirən məktəbli uşaqların, tələbələrin payız aylarında qapalı məkanlara qayıtması ilə əlaqədardır”. Bu fikirləri ATU-nun Tədris Terapevtik Klinikasının Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin rəhbəri, II Uşaq xəstəlikləri kafedrasının assistenti, pediatr Qoşqar İsmayılov “Təbib” qəzetinə danışarkən bildirib.

Onun sözlərinə görə, qapalı yerlərdə uşaqlardan biri xəstə olanda xəstəlik digərlərinə də sürətlə yayılır: “Bu səbəbdən avqust ayında az rast gələnən xəstəliklər sentyabrın ortalarında, oktyabrda özünü daha çox büruzə verməyə başlayır. Bunun bir səbəbi də payız mövsümündə virusların aktivləşməsi, eyni zamanda immun sistemi zəif olan uşaqların yay mövsümündə yaxşı qidalanmamasıdır. Vitaminli meyvələrdən az istifadə edənlər də asanlıqla infeksion xəstəliklərə yoluxur və başqalarını yoluxdururlar”.

Payız aylarında ən çox görünən virus infeksiyalarının qrip və paraqrip virusları olduğunu deyən həkim-pediatr qeyd edib ki, bu viruslar adından da göründüyü kimi, uşaqlarda kəskin respirator xəstəliklər yaradır: “Bu xəstəliklər özünü burun axıntısı, burunda qaşınma, tək-tək quru öskürəkdən bəlğəmli öskürəyə keçməklə göstərir. Əgər nəsildə, ailədə, uşağın özündə allergiya varsa, o zaman allergik bronxit formasında da ortaya çıxa bilər. Gedişatdan asılı olaraq yüksək hərarət də müşahidə edilərsə, mütləq şəkildə həkimə, xüsusilə poliklinika pediatrlarına müraciət etmək lazımdır. Müayinə zamanı virus problemi ortaya çıxarsa, ilk növbədə bunun qarşısını almaq üçün simptomatik antivirus preparatlarından istifadə olunmalıdır. Xəstənin immun sistemi zəifdirsə və üstəlik də vaxtında üzərinə düşülməzsə, bakterial prosesin də işə qoşulması ilə vəziyyət daha da ağırlaşar. Xəstəlik bakterial bronxit, pnevmoniya mərhələsinə keçə bilər ki, bu da sətəlcəm olan uşağın xəstəxanaya düşməsi ilə nəticələnər”.

Belə halların qarşısını almaq üçün vaxtında həkim-pediatra müraciət etməyin vacibliyini söyləyən Q.İsmayılov, ilk növbədə profilaktik tədbirlərin əhəmiyyətini vurğulayıb: “Mən hər zaman sosial şəbəkələrdə, maarifləndirici televiziya verilişlərində bütün valideynlərə üzümü tutub deyirəm ki, profilaktika çox önəmlidir. Körpə uşaqlarda profilaktik peyvəndlərin aparılması ilə yanaşı, yuxu rejiminin normal olması və düzgün qidalanma xüsusi önəm daşıyır. Daha kiçik uşaqlar 10-12 saat, məktəbli uşaqlar isə 8-10 saat yatmalıdır. Yuxu rejimi normaldırsa, immun sistemi də normaldır. İmmun sistemi normaldırsa, uşaq sağlamdır. Qidalanmada isə təbii qidalara üstünlük verilməlidir. Yay mövsümündə olan meyvələr, təbii vitaminli qidalar çox faydalıdır. Hər bir meyvədə və tərəvəzdə müxtəlif vitaminlər və minerallar var. Çalışıb ev yeməklərindən istifadə etmək, “fast-fud” və ya “əlüstü yemək”lərdən uzaq durmaq lazımdır. Belə olduqda təbii ki, uşaqlar sağlam böyüyəcək, xəstələnməyəcək, həkimə yalnız profilaktik məqsədlə müraciət ediləcək. Unutmayaq ki, sağlam övladlar bizim cəmiyyətin sağlam gələcəyidir”.

# Özü kiçik olsa da, orqanizmdə bütün prosesləri tənzimləyən vəz

**Pediatr-endokrinoloq İlsur Novruzov qalxanabənzər vəzi xəstəliklərinin “gəncləşməsi” səbəblərinə aydınlıq gətirir**

**Son illər qalxanabənzər vəzi xəstəlikləri nəinki böyüklər, azyaşlı və yeniyetmələr arasında da geniş yayılmağa başlayıb. Bəs adıçəkilən xəstəliyin yaranmasına səbəb nədir? Azyaşlılar arasında bu xəstəlik niyə çoxalır? Bu barədə geniş məlumatı Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının assistenti, pediatr-endokrinoloq İlsur Novruzov verib.**

Onun sözlərinə görə, son illər uşaqlarda və yeniyetmələrdə qalxanabənzər vəzi xəstəliklərinin artması təkcə ölkəmizdə deyil, bütün dünyada müşahidə olunur: “Qalxanabənzər vəzi çox vacib funksiyanı yerinə yetirir və demək olar ki, bütün sistemlərin fəaliyyətini tənzimləyir. Bu orqan nisbətən kiçik ölçülü olsa da, orqanizmdə bütün prosesləri tənzimləyən lazımı hormonları ifraz edir. Onun nəzarəti altında yuxu, qidalanma, tənəffüs, ürək döyüntüsü, maddələr mübadiləsi prosesi, doğum qabiliyyəti və s. dayanır. Bu orqanda hətta kiçik pozğunluqların olması orqanizmdə ciddi problemlərin baş verməsinə səbəb ola bilər. Son illər bu xəstəlik o qədər geniş yayılıb ki, dünya əhalisinin demək olar ki, 30 faizi müxtəlif qalxanabənzər vəzi problemlərindən əziyyət çəkir”.

Həkim bildirib ki, tibdə qalxanabənzər vəzin böyüməsi zob adlanır. Zob anadangəlmə və sonradan qazanılmış ola bilər. Qalxanabənzər vəzin funksiyasının azalması hipotiriodizmə gətirib çıxarır. Hormonların həddən artıq ifrazı isə toksik zoba səbəb olur. Qalxanabənzər vəzin ölçüləri ilə onun funksional aktivliyi arasında birbaşa əlaqə yoxdur.

Pediatr-endokrinoloq valideynlərə övladlarında qalxanabənzər vəzin sağlamlığı məsələsinə həssas yanaşmağı tövsiyə edib. Onun sözlərinə görə, yeniyetməlik dövründə qalxanabənzər vəzi orqanizmin hormonal yenidənqurulmasında və fiziki inkişafında mühüm rol oynadığı üçün ona diqqətlə yanaşmaq lazımdır: “Yeniyetmələrdə bu vəzin fəaliyyətinin pozulması onlarda tez yorulma, halsızlıq, yorğunluq, baş ağrıları, yaddaşın zəifləməsi, əhval dəyişikliyi, saç tökülməsi, dərinin quruluğu, bağırsaq disfunksiyaları və menstrual tsiklin pozulması kimi əlamətlərlə özünü göstərə bilər. Ən çox rast gələnən səbəblər isə stress, əmək və istirahət rejiminin pozulması, artmış psixi və fiziki yüklənmə, artıq çəki və metabolik pozğunluqlardır. Bu gün azyaşlı uşaqlar arasında ən çox rast gələnən xəstəlik isə hipotireoz xəstəliyidir. Xəstəlik anadangəlmə də ola bilər. Bu zaman qalxanabənzər vəzi ya tamamilə olmur və ya həddindən artıq böyük olur.



Azyaşlı və yeniyetmələrdə qalxanabənzər vəzin klinik gedişi böyüklərə nisbətən fərqlidir. Yenidoğulmuşlarda isə kretinizmə səbəb ola bilər. Qazanılmış hipotireoza daha çox 7-12 yaş arasında rast gəlinir, tibdə bunun adı autoimmun tireoid kimi keçir”.

Mütəxəssis bildirib ki, həkim-endokrinoloqa vaxtında müraciət olunmasa, xəstələrdə ciddi fəsadlar yarana bilər. Belə ki, intellektual pozğunluqlar, fiziki inkişafda qüsurlar, ürək və immunitetlə bağlı problemlər baş qaldırar. Ən ciddi fəsad isə 14-24 yaş qrupunda xərçəngin yaranmasıdır.

İ.Novruzov qalxanabənzər vəzi xəstəliklərinə daha çox 12-18 yaş arası qızlarda rast gəlindiyini qeyd edib. Belə ki, qızlarda oğlanlara nisbətən 3 dəfə çox müşahidə olunur.

Mütəxəssis, söhbətimiz zamanı xəstəliyin yaranma səbəblərinə də toxunub: “Xəstəliyin bir sıra yaranma səbəbləri var ki, onlardan ekoloji vəziyyətin çirkli olmasını (ağır metallarla, pestisidlərlə, dizraptorlarla çirklənmə) irsi meyillilik – xüsusilə qadın xətti ilə X xromosomları vasitəsilə keçməni, natamam və qeyri-sağlam qidalanmanı, xroniki iltihabi proseslərini, tez-tez rast gəlinən virus infeksiyalarını (qrip, məxmərək, adenoviruslar və s.), mikroelementlərin (dəmir, selen, sink, yod) çatışmazlığı və ya normadan artıq olmasını qeyd edə bilərəm. Səbəblər təkcə bunlar deyil. Son illər psixoloji faktorların təsirini və məktəbdə şagirdlərin həddindən artıq yüklənməsini də bu siyahıya əlavə etmək olar. Bundan başqa, risk faktorları da xəstəliyə şərait yaradan amillərdəndir. Bura KT, kəllə və boyun nahiyəsinin rentgenoqrafiyası kimi tibbi prosedurlar, bəzi dərman preparatlarının qəbulu da daxildir”.

Bütün bunları nəzərə alaraq, azyaşlılarda və yeniyetmələrdə yuxarıda sadalanan əlamətlər müşahidə olunarsa, həkim-endokrinoloqa müraciət etmək, müayinə olunmaq lazımdır ki, gələcək fəsadların qarşısı alınsın.




# Əməkdaşımız NATO tərəfindən təşkil olunan kursda iştirak edib

**Hərbi tibb fakültəsinin baş müəllimi, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov 31 avqust – 5 sentyabr tarixlərində Almaniya Federativ Respublikasının Oberrammergau şəhərində yerləşən NATO Məktəbinin “Birgə tibbi planlaşdırma” kursunda (Joint Medical Planner Course - JMPC) iştirak edib.**

Bu məktəb NATO və tərəfdaş ölkələr üçün strateji və əməliyyatlar səviyyəsində təlimlər təşkil edən aparıcı hərbi tədris müəssisəsidir. JMPC NATO və tərəfdaş ölkələrin hərbi və ya mülki tibbi planlaşdırıcılarını hazırlamaq üçün nəzərdə tutulub.

Kursda NATO əməliyyatlarında tibbi planlaşdırmanın effektiv şəkildə icra olunmasına dair nəzəri və praktik əsaslı təlim keçirilib, NATO-nun tibbi dəstək və tibbi planlaşdırma prosesi, beynəlxalq tibbi planlaşdırma təcrübəsi haqqında ətraflı nəzəri və praktik məlumatlar verilib. Tibbi evakuasiya zənciri və tibbi kəşfiyyat real ssenariləri əsasında praktik məşqlər və planlaşdırma tapşırıqları həyata keçirilib.

Proqram NATO və tərəfdaş ölkələr arasında ortaq tibb xidmətinin təşkili və tibbi planlaşdırmanın prosedurlarının gücləndirilməsinə hədəflənib. Əsasən NATO-ya üzv və tərəfdaş olan ölkələrin hərbi və mülki tibb personalının qatıldığı kursda NATO-da hərbi tibbi idarəetmənin prinsipləri və hərbi tibb xidmətinin fəaliyyətinin planlaşdırılmasına olan tələblər haqqında təqdimatlar keçirilib. Həmçinin real olaraq hərbi tibbi-taktiki vəziyyətin qiymətləndirilməsi və qoşunların tibbi təminatının planlaşdırılması məşqləri baş tutub. Hərbi tibbi planlaşdırmanın məzmunu və tərtib edilməsi, müxtəlif coğrafi relyef şəraitində döyüş əməliyyatlarının tibbi təminatının təşkili xüsusiyyətləri, statistik tədqiqatların hərbi tibbi planlaşdırmaya tətbiqi qaydaları təhlil edilərək izah olunub.

Qeyd edək ki, 4 moduldan ibarət kursun əsas məqsədi NATO-da hərbi tibb xidmətinin fəaliyyətinin və təminatının planlaşdırılması, planın məzmunu və tərtib edilməsi xüsusiyyətlərinin öyrədilməsidir.

Əməkdaşımız Azərbaycan Ordusunda tibb xidmətinin təşkili edilməsi, daha da təkmilləşdirilməsi və perspektivlər haqda məlumatları diqqətə çatdırıb. Kursun sonunda müvəffəqiyyətlə iştirak edənlərə NATO-nun beynəlxalq sertifikatı və xatirə fotosu təqdim olunub.

# Əməkdaşımız Harvard Tibb Məktəbinin sertifikatını alıb

**Oftalmologiya kafedrasının dosenti Nigar Sadıqova Harvard Tibb Məktəbi (Harvard Medical School - HMS) tərəfindən təşkil edilən beynəlxalq Tibb Tədrisinin Öyrədilməsi üzrə Təlim (Training to Teach in Medicine) sertifikat proqramını uğurla başa vurub.**



Belqrad Hərbi Tibb Akademiyası ilə tanışlıq məqsədi daşıyan səfər çərçivəsində onlar şəhərin Taşmaydan parkında Ulu Öndər Heydər Əliyevin abidəsini, sonra isə Serbiya şairi və yazıçısı Milorad Paviçin heykəlini ziyarət ediblər. Xidməti ezamiyyət zamanı Belqradda hərbi tibbi təhsil üzrə mütəxəssislərlə işçi görüş keçirilib. Görüşdə Serbiyanın Hərbi Tibb İdarə rəisi, tibb xidməti general-mayoru, professor Dragan Dincicin rəhbərlik etdiyi heyət və Belqrad Müdafiə Universitetinin rektorunun beynəlxalq hərbi və universitetlərarası əməkdaşlıq üzrə müavini, polkovnik Srdyan Lyuboyeviç iştirak ediblər.

Professor D.Dincic Azərbaycan və Serbiya arasında hərbi tibbi təhsil sahəsində əməkdaşlığın artan xətlə davam etdiyini bildirərək, bu əlaqələrin qarşılıqlı təcrübə mübadiləsində də əks olunduğunu vurğulayıb.

Səfər zamanı əməkdaşlarımız Serbiya Tibb Akademiyası və Hərbi Tibbi Araşdırma İnstitutundakı şəraitlə yaxından tanış olub, həmçinin Belqrad Hərbi Tibb Akademiyasının Hərbi tibb fakültəsində tədris prosesini izləyiblər. Daha sonra Belqrad Hərbi Hospitalının şöbə və bölmələrindəki şəraitlə tanışlıq baş tutub. Görüşlər zamanı bu müəssisələrdə tibb xidmətinin təşkili barədə əməkdaşlarımıza ətraflı məlumat verilib. O cümlədən Hərbi Akademiyanın strukturu, tədris prosesi, eləcə də Serbiyada hərbi tibb kadrlarının tibb təhsili və hazırlığı mövzularında brifinq də keçirilib.

Səfər zamanı əməkdaşlarımız Nis şəhərində yerləşən Qarnizon Hospitala da baş çəkib, hospitalın yaranma tarixi, təhsil sistemi barədə maraqlanıblar.

Səfərin son günü Azərbaycanın Serbiyadakı fövqəladə və səlahiyyətli səfiri Kamil Xasiyevlə səfirliyin binasında görüş olub. Səfir Azərbaycanla Serbiya arasında strateji tərəfdaşlıq zəminində qurulan əlaqələrin yüksək səviyyədə olduğunu, birgə hərbi əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyini bildirib.

**Universitetimizin məzunları dünyanın müxtəlif ölkələrində uğurla fəaliyyət göstərərək, öz peşəkarlıqları ilə seçilirlər. Onlardan biri də 2008-ci il məzunu, stomatoloq Ülkər Cəfərovadır.**

ATU-da aldığı fundamental tibbi biliklər onun peşəkar inkişaf yolunda möhkəm baza olub. Bir müddət Azərbaycanda həkim kimi çalışıb, beynəlxalq seminar və konfranslarda iştirak edib. Daha sonra isə fəaliyyətini ABŞ-də davam etdirmək qərarına gəlib.



# Məzunumuz ABŞ-də həkim-rezident kimi fəaliyyət göstərir

Əvvəlcə Amerika səhiyyə sistemini yaxından öyrənən Ü.Cəfərova tibb sahəsində işləmək hüququ qazanmaq üçün çətin imtahan mərhələsindən uğurla keçib. ATU-nun diplomunu təsdiqlətdikdən sonra elmi araşdırmalar aparıb və əlavə ixtisaslaşma üçün rezidentura proqramına qəbul alıb.

Ü.Cəfərova qeyd edir ki, ABŞ-də tibbi diplomun tanınması olduqca çətin prosesdir: “Çünki burada yalnız amerikalılarla deyil, dünyanın müxtəlif ölkələrindən gələn həkimlərlə limitli sayda proqramlar uğrunda rəqabət aparırsan. Burada həkimləri yalnız biliklərinə görə deyil, bütöv bir şəxsiyyət kimi dəyərləndirirlər. Elmi araşdırmalar, iş təcrübəsi, könüllü fəaliyyət, hətta idman nailiyyətləri belə nəzərə alınır".

Hazırda o, ABŞ-nin Ohayo ştatında həkim-rezident kimi təhsilini davam etdirir. Bu çətin və məsuliyyətli yolda ona ən böyük dəstək ailəsindən gəlib. Ü.Cəfərova, həmçinin sənəd prosedurlarında ona yardım göstərən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə, Tədris departamentinin rəhbəri Kamandar Yaqubova və Məzunlarla iş şöbəsinin müdiri Şəfəq Cəbrayılovaya xüsusi təşəkkürünü çatdırır.

Universitetimiz öz məzunları ilə fəxr edir, onlara lazımi dəstəyi əsirgəmir. ATU məzunlarının dünyanın hər yerində uğurla fəaliyyət göstərməsi universitetimizin güclü akademik ənənələrinin və təqdim etdiyi yüksək tibbi təhsilin təsdiqidir.

# Hamiləlik zamanı TORCH infeksiyaları ilə bağlı seminar təşkil olunub



**Sentyabrın 12-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Klinik-diaqnostik laboratoriya şöbəsi ilə Rezidentura və magistratura şöbəsinin birgə təşkilatçılığıyla “Hamiləlik zamanı TORCH infeksiyalarının diaqnostikasında avidlik testinin əhəmiyyəti” mövzusunda növbəti seminar təşkil olunub.**

Tədbirin açılışında seminarın moderatoru, Rezidentura və magistratura şöbəsinin müdir müavini, Uşaq cərrahiyyəsi kafedrasının assistenti Namiq Xəlilov çıxış edərək rezidentlərin bilik və bacarıqlarının artırılmasında belə seminarların önəmini vurğulayıb. O, hamiləlik zamanı TORCH infeksiyalarının əsasən döl üçün təhlükəli olduğunu, ana bətnində inkişaf qüsurlarına səbəb ola bildiyini qeyd edib və mövzunun tibbi praktikada aktuallığını nəzərə çatdırıb. Əlavə edib ki, bu cür seminarlar gənc həkimlərin nəzəri biliklərini artırmaqla yanaşı, onların klinik qərarvermə bacarıqlarını və kritik situasiyalarda düzgün yanaşma qabiliyyətini möhkəmləndirir.

Sonra laboratoriya şöbəsinin müdiri Leyla Həşimova çıxış edərək seminarın mövzusu barədə məlumat verib. O, hamiləlik dövründə TORCH infeksiyalarının vaxtında aşkarlanmasının dölün sağlamlığı üçün vacib olduğunu vurğulayıb. L.Həşimova qeyd edib ki, yalnız IgM və IgG göstəricilərinə əsaslanmaq infeksiyanın vaxtını dəqiq müəyyənləşdirməyə yetərli deyil və bu baxımdan IgG avidlik testi perinatal diaqnostikada xüsusi əhəmiyyət daşıyır.

Seminar çərçivəsində məruzəni mikrobiologiya ixtisası üzrə II kurs rezidenti Səbinə Əzimova təqdim edib. O çıxışında vurğulayıb ki, TORCH infeksiyaları hamiləlik dövründə ciddi klinik fəsadlara səbəb ola bilər və ana bətnində yoluxmanın erkən aşkarlanması dölün inkişaf qüsurlarının qarşısının alınmasında həlledici rol oynayır. Həmçinin qeyd edib ki, IgG avidlik testi yalnız infeksiyanın mövcudluğunu müəyyən etmir, eyni zamanda yoluxmanın vaxtını dəqiq təyin etməyə imkan verir. Bu isə həkimlərə müalicə və profilaktika strategiyalarını düzgün planlaşdırmaq və hamiləliyi təhlükəsiz şəkildə idarə etmək üçün vacib məlumat təqdim edir.

Seminarda II Mama-ginekologiya kafedrasının həkim-müəllimləri – Səfa Bağırova, Sevinc Əliyeva, Pərvanə Əliyeva, Nuranə Həmidova və həkim-rezidentlər iştirak ediblər.

Müzakirələr zamanı müəllimlər məruzəçiyə mövzu ilə bağlı müxtəlif suallar ünvanlayaraq, onun bilik və bacarıqlarını daha da dərindən nümayiş etdirməsinə şərait yaradıblar.

# Əsaslı Kitabxana yeni dərs ilinə hazırdır

**2025/2026 tədris ili ərəfəsində Əsaslı Kitabxananın direktoru Ziyafət Eminova hazırlıq işləri haqqında məlumat verib.**




Belə ki, universitetin əsas struktur bölmələrindən biri olan Əsaslı Kitabxana tələbələrin istifadəsinə tam hazır vəziyyətə gətirilib. Hal-hazırda kitabxananın fondunda 630 mindən çox ədəbiyyat toplanıb ki, bunların əsas hissəsini tibbi sahəyə aid materiallar təşkil edir. Kitabxana oxuculara elmi, dərslik, xarici ədəbiyyat, dissertasiya və avtoreferatlar, jurnal və qəzet fondları vasitəsilə xidmət göstərir. Qeyd edək ki, Əsaslı Kitabxanada altı oxu zalı fəaliyyət göstərir və bunlardan biri virtual oxu zalıdır. Yeni tədris ili ilə əlaqədar kitabxanada genişmiqyaslı hazırlıq işləri aparılıb. Tələbələrin ehtiyac duyduğu ədəbiyyat və dərslərin mövcud vəziyyəti yoxlanılıb, çatışmayan vəsaitlər barədə rəhbərliyə məlumat təqdim olunub. Müvafiq olaraq, kitab fondunun yenilənməsi və genişləndirilməsi üçün zəruri tədbirlər görülüb.

Həmçinin iş rejimi haqqında məlumat verilib. Sentyabrın 15-dən oktyabrın 1-dək kitabxana 12 saatlıq iş rejimində, oktyabrın 1-dən etibarən isə 24 saatlıq rejimdə fəaliyyət göstərəcək. Həftənin 1, 3 və 5-ci günləri 24 saat, 2, 4 və 6-cı günləri isə saat 21:00-dək tələbələrə xidmət göstərilməsi nəzərdə tutulub.

Əsaslı Kitabxana bu tədris ilində də tələbələrin təhsil və elmi-tədqiqat fəaliyyəti üçün mütəşəkkil şəkildə fəaliyyət göstərməyi və ədəbiyyata əlçatanlığı maksimum dərəcədə təmin etməyi qarşıya məqsəd qoyub.

# Dərslik və dərs vəsaitlərinin yeni nəşrləri işıq üzü görüb

**Patoloji fiziologiya fənni üzrə bir sıra dərsliklərin mövcudluğuna baxmayaraq, tibb təhsili sisteminin Avropa təhsilinə inteqrasiyası, tədris proqramlarında dəyişikliklərin aparılması, patofiziologiya sahəsində əldə olunan elmi yeniliklərin tədris prosesinə daxil edilməsi yeni dərsliklərin hazırlanmasına zərurət yaradıb.**



Yeni tədris ilində Patoloji fiziologiya kafedrasının professor-müəllim heyəti tərəfindən bütün fakültələr üzrə hazırlanmış dərslik və dərs vəsaitlərinin yeni nəşrləri işıq üzü görüb. Müalicə və Hərbi tibb fakültələri üçün nəşr olunmuş “Patoloji fiziologiya I və II hissə” (968 səhifə) dərsliyi ATU-nun yeni tədris proqramı əsasında yazılıb və onu tam əhatə edir. Dərslikdə ümumi və xüsusi patofiziologiyanın əsas məsələləri ətraflı şəkildə izah olunub, yeni məlumatlarla zənginləşdirilib.

“Praktik məşğələlərə dair klinik-patofizioloji aspektlər” adlı digər dərs vəsaiti patoloji fiziologiya fənni üzrə keçirilən praktik məşğələlərin aparılması üçün nəzərdə tutulub. Bu dərs vəsaitinin üstün cəhətlərindən biri kitabda hər bir mövzu üzrə klinik-patofizioloji aspektlərin verilməsidir. Belə ki, müxtəlif orqan və sistemlərin patologiyası zamanı tətbiq olunan müasir laborator və funksional müayinə metodları öz əksini tapıb.

Kafedranın seçim fənni üçün nəzərdə tutulan yeni nəşri “Klinik patofiziologiya” adlı dərslikdir. Kitabda xəstəliklərin klinik-laborator diaqnostikası ən müasir məlumatlara və üsullara istinad edilərək təqdim olunub. Dərslik klinik-laborator müayinələr əsasında xəstəyə düzgün diaqnoz qoymaq, eləcə də xəstəliklərin formalarını ayırd edə bilmək, onu düzgün qiymətləndirmək imkanı yaradır.

Qeyd edək ki, 2023-cü ildə Stomatologiya və Əczaçılıq fakültələri üçün Azərbaycan dilində “Patoloji fiziologiya” dərsliyi nəşr olunmuşdu. Bu fakültələrdə xarici tələbələr də təhsil aldığı üçün onların patoloji fiziologiyanı dərindən və asanlıqla mənimsəməsi məqsədilə həmin dərslik ingilis dilinə tərcümə olunub.

# Tələbələrimiz beynəlxalq yay düşərgəsində iştirak edib



**Bu yaxınlarda Gənclər və İdman Nazirliyi və Azərbaycan İdman Akademiyasının (ASA) birgə təşkilatçılığı ilə Qubada "Dayanıqlı inkişafa bir addım" adlı beynəlxalq yay düşərgəsi təşkil olunub.**

Düşərgəyə ölkəmizdə fəaliyyət göstərən bir sıra universitetlərin, o cümlədən Türkiyə, Qazaxıstan və Qırğızıstanın ali məktəblərində təhsil alan tələbələr qatılıb. Tanınmış təlimçilərin də iştirak etdiyi düşərgədə seminarlar ingilis dilində təşkil olunub, iqtisadi, sosial və maddi problemlərin həllinin araşdırılması üçün komandalar yaradılıb və onlara müvafiq tapşırıqlar verilib.

Azərbaycan Tibb Universitetindən düşərgəyə beş tələbə - Emin Cəfərli, Səfiyyə Qazilova, Zülfiyyə Məmmədli, Fərhad Bayramov və İlhamə Namazova qatılıb. Onlar öz fəallıqları ilə seçilib, fikir və ideyalarını iştirakçılarla bölüşüblər.

Seminar zamanı M.Topçubaşov adına Elmi Mərkəzin tədqiqatçıları Simona Scotti, Gülxanım Məmmədova, Bakı Dövlət Universiteti rektorunun müşaviri Asiman İlyasov, ASA-nın tədris işləri üzrə prorektor müşaviri Zərifə Kamilova, baş müəllim Əli Muradov, ilk dəfə Everest zirvəzini fəth etmiş azərbaycanlı xanım Vəfa Musayeva, 2024 Olimpiya Oyunlarının iştirakçısı Yaylagül Ramazanova, dünya və ikiqat olimpiya çempionu Richard Trautman və mayor, Vətən müharibəsi qazisi, paralimpiya idmançısı Polad Rzayevin çıxışları maraqla dinlənilib.



Tələbələrimizin təklifi ilə voleybol yarışı keçirilib. E.Cəfərli oyun boyunca "Təbib" voleybol komandasında öyrəndiyi bacarıqları sərgiləyərək digərlərindən fərqlənib. "Kahoot" yarışında isə İ.Namazova bütün suallara doğru cavab verərək qalib olub.

Rəqs gecəsində Z.Məmmədli "Uzun dərə" rəqsi ilə əcnəbiləri heyran edib. G.Məmmədova və S.Qazilovanın gender bərabərsizliyi ilə bağlı məruzələri iştirakçıların marağına səbəb olub. Müsabiqənin sonunda ATU-nun komandası birinci yerə layiq görülüb və üzvlərə hədiyyələr təqdim olunub.

Düşərgə iştirakçılarına sertifikatların verilməsi mərasimində ATU-nun "Təbib" Tədris İdman Mərkəzinin müdiri Qələndər Aslanov çıxış edib.

# Stress və sosial problemlər piylənmə böhranını dərinləşdirir

**ABŞ-də piylənmə sürətlə artır və artıq yetkinlərin təxminən 40 faizinə təsir göstərir. AZƏRTAC xəbər verir ki, UCLA Health-in yeni araşdırmasına görə, bu böhranın səbəbləri yalnız pəhriz və hərəkətsizlik deyil, həm də stress və sosial çətinliklərdir.**

"Clinical Gastroenterology and Hepatology" jurnalında dərc olunan məqalədə gəlir səviyyəsi, təhsil, səhiyyə xidmətinə çıxış, yaşanılan ərazi, ayrı-seçkilik, uşaqlıqda mənfi hadisələr və sosial təcridin piylənmənin əsas amilləri olduğu vurğulanır.

Mütəxəssislər bildirir ki, stress və çətinliklər bağırsaq bakteriyalarını və beyin fəaliyyətini dəyişdirərək iştaha, qida seçimləri və metabolizmə təsir edir. Bu dəyişikliklər insanların qeyri-sağlam qidalara meylini gücləndirir və kilo verməyi çətinləşdirir.

Araşdırma, həmçinin göstərir ki, sosial-iqtisadi çətinliklər, ucuz və emal olunmuş qidalara asılılıq, təhlükəsiz idman məkanlarının çatışmazlığı və irqçilik kimi amillər piylənmə riskini artırır. Sosial təcrid isə beyində iştah və qərarverməni idarə edən şəbəkələri pozaraq riski daha da yüksəldir. Mütəxəssislər hesab edirlər ki, piylənmənin qarşısını almaq üçün ikili yanaşma lazımdır: fərdlər üçün fərdiləşdirilmiş tibbi yardım və sosial problemləri aradan qaldıran sistemli siyasət islahatları. Bununla yanaşı, insanlar da şəxsi səviyyədə addımlar ata bilərlər. Sağlam qidaları seçmək, sosial əlaqələri gücləndirmək, fiziki fəaliyyət və stressi azaldan məşğuliyyətlərlə məşğul olmaq sağlamlığa dəstək ola bilər.



UCLA-dan dr. Arpana Church qeyd edir ki, səhiyyə mütəxəssisləri yalnız tibbi müalicə ilə kifayətlənməməli, həm də sosial amilləri nəzərə alaraq daha fərdiləşdirilmiş planlar təqdim etməlidirlər.

# Qızılcanın müalicəsi də icbari tibbi sığorta hesabına qarşılanır

**Qızılca, əsasən uşaqlarda rast gəlinən, yüksək infeksion xüsusiyyətə malik, virus mənşəli xəstəlikdir. Qızılca virusu, hava-damcı yolu ilə yayılaraq, bədənin müxtəlif hissələrində qaşınma, öskürək və yüksək hərarət, burun axması, gözlərdə qızartı, yüksək temperaturun ardından üzdən başlayaraq bədənin qalan hissəsinə doğru yayılan səpkilərlə özünü büruzə verir.**



İcbari tibbi sığortanın Xidmətlər Zərfi ilə qızılcanın diaqnostika və stasionar müalicəsi üçün geniş çeşiddə tibbi xidmətlər təminata alınıb.

Xəstəliyin diaqnozu əsasən klinik əlamətlər əsasında qoyulur, lakin dəqiq diaqnozun təsdiqi üçün bir neçə laborator analiz tətbiq oluna bilər. Bu analizlər arasında Anticisim Rubella seroloji testi, PCR (Polymerase Chain Reaction) testləri və qızılca virusunun antikorlarını yoxlamaq üçün İgG və İgM testləri icbari tibbi sığorta hesabına qarşılanır.

Əksər hallarda qızılca yüngül bir xəstəlik kimi keçsə də, bəzi hallarda ciddi ağırlaşmalara yol aça bilər. Qızılca, xüsusən immuniteti zəif olan, yaşlılar, uşaqlar və hamilələrdə daha ciddi fəsadlara səbəb ola bilər. Bu ağırlaşmalar arasında ağciyər iltihabı (pnevmoniya), beyin iltihabı (ensefalit), baş və onurğa beyninin toksiko-allergik və ya virus etiologiyalı iltihabı (ensefalomielit), qulaq infeksiyası (orta otit), meningit, qusma, bağırsaq, ürək problemləri, göz iltihabı (keratit), konyuktivit və digər diaqnozlarla müşayiət olunan xəstəliklər yer alır. Tibbi göstərişə əsasən qızılcanın ağırlaşması zamanı qeyd olunan xəstəliklərin stasionar müalicəsi icbari tibbi sığorta hesabına həyata keçirilir. Vətəndaşlar bu xidmətlərdən yararlanmaq üçün ilkin olaraq ailə həkiminə və ya ixtisaslı həkimə müraciət etməlidirlər.

Qeyd olunan xidmətlər - laborator analizlər, instrumental-diaqnostik müayinələr, stasionar müalicə tibbi göstəriş əsasında TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində və Səhiyyə Nazirliyinin müvafiq elmi-tədqiqat institutlarında icra olunur.

Məlumat üçün bildirək ki, qızılcanın daha çox ağırlaşmasına səbəb ola biləcək risk faktorları arasında vitamin A çatışmazlığı, immun sisteminin zəifliyi, digər xroniki xəstəliklər və yaş amili yer alır. Bu ağırlaşmaların qarşısını almaq üçün erkən müdaxilə vacibdir. Qızılcaya qarşı ən güclü müdafiə üsulu QPM peyvəndidir (qızılca, parotit, məxmərək peyvəndi). Bu peyvənd 1 və 6 yaşlarda iki doza şəklində icbari tibbi sığorta hesabına vurulur və yüksək effektivliyə malikdir.

Xəstəliyin yayılmasının qarşısını almaq üçün yoluxmuş şəxslərin izolyasiyası, şəxsi gigiyena qaydalarına ciddi riayət və erkən tibbi müdaxilə həyati əhəmiyyət daşıyır. Əlamətlər aşkarlandıqda, dərhal həkimə müraciət etmək ağırlaşmaların qarşısını almağa kömək edir.

# Dünya tibb elminə ağır itki üz verib



**İstanbul Universitetinin professoru, dünya şöhrətli plastik cərrah, Azərbaycan Tibb Universitetinin ilk Fəxri doktorlarından biri olan İbrahim Yıldırım vəfat edib.**

Əslən Azərbaycanın Qazax rayonundan – Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri Mustafa Vəkiloğlunun nəslindən olan İbrahim Yıldırım 1936-cı il noyabrın 20-də Türkiyədə – Amasya vilayətinin Merzifon rayonunda dünyaya gəlib. İstanbul Universitetinin Tibb fakültəsini bitirdikdən sonra ABŞ, Avropa və Asiyanın müxtəlif ölkələrində plastik cərrahiyyə üzrə ixtisasartırma kurslarında təcrübə keçib, konfrans və seminarlarda iştirak edib. Dünyanın tanınmış plastik cərrahlarından biri olaraq müxtəlif ölkələrdə qonaq professor kimi mühazirələr oxuyub. Tibb sahəsində ixtisaslaşmış bir sıra cəmiyyət və təşkilatların, o cümlədən Azərbaycan Cərrahiyyə Cəmiyyətinin və Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin üzvü olub.

Molla Vəli Vidadinin və Molla Pənah Vaqifin nəticəsi olan Fügen xanımla ailə quran İbrahim Yıldırım Azərbaycanla bağlılığını heç vaxt unutmayıb. Azərbaycanın elmi mühiti ilə yanaşı, ədəbi mühitini də yaxından tanıyıb. Vaxt məhdudiyyətinə baxmayaraq mütəmadi olaraq Azərbaycana gəlib, ədəbi məclislərdə, tədbirlərdə böyük həvəslə iştirak edib. Ümummilli lider Heydər Əliyevlə görüşüb. O, Birinci Qarabağ müharibəsində yaralanmış döyüşçülərimizin müalicəsinə, dərmanların gətirilməsinə, ağır yaralıların xarici ölkələrə aparılmasına, eləcə də azərbaycanlıların Türkiyədə ali tibb təhsili almasına köməkliklər göstərib.

Vətən müharibəsi zamanı və ondan sonra Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında xidmətləri nin əsirgəməyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ildə İ.Yıldırımı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalı ilə təltif edib.

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi və kollektivi professor İbrahim Yıldırımın vəfatından kədərləndiyini bildirir, ailəsinə və tibb ictimaiyyətinə dərin hüznlə başsağlığı verir.**

## Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları Stomatologiya fakültəsinin dekanı Elmira Əliyevaya anası

**Vişnikina Tatyana Mixaylovnanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın əməkdaşı

**Zəminə xanımın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının əməkdaşları iş yoldaşları İradə İslamovaya qardaşı

**Nemət müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın laboratoriya müdiri Aypara Həsənovaya anası

**Gülsənəm Mövlanverdiyevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın assisenti Esmira Həşimovaya əzizi

**Natiq Həşimovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əczaçılıq toksikologiyası və kimya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Könül Hüseynquliyevaya anası

**Kifayət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əczaçılıq toksikologiyası və kimya kafedrasının əməkdaşları kafedranın baş laborantı Fatma Behbudovaya qaynatası

**Cabir bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın dosenti Məmmədova Zərifə Bayram qızına bacısı

**Elmira xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0015
Sayı 800